# AZƏRBAYCANIN COP29 GÜNDƏMİ QLOBAL TƏŞƏBBÜSLƏRƏ TÖHFƏDİR

**Ölkəmizdə "yaşıl" iqtisadiyyat sahəsində həyata keçirilən tədbirlər və onun uğurlu nəticələri COP29-un "yaşıl" gündəliyində duran məsələlərlə həmahəngdir və bu sahədə Azərbaycanın malik olduğu potensial və tarixi təcrübə bütün ölkələrə örnək göstərilə bilər.**




### Azərbaycanın "yaşıl dünya" gündəmində "yaşıl iqtisadiyyat"

Məlumdur ki, Azərbaycan özünün qədim tarixi, adət-ənənələri, birgə yaşayış norma və qaydaları, milli-mənəvi dəyərləri, yerləşdiyi coğrafi və strateji mövqeyi ilə sivilizasiyaların qovuşduğu bir məkan kimi daim diqqət mərkəzində olub.

Regionun siyasi, iqtisadi və mədəni mərkəzinə çevrilən, dinamik və hərtərəfli inkişaf yolu keçən Azərbaycanın iqtisadi qüdrəti və fəal xarici siyasəti ölkəmizin çoxtərəfli formatlarda aparıcı mövqeyini möhkəmləndirib. Böyük transmilli layihələrin təşəbbüskarı olan Azərbaycan beynəlxalq və regional təşkilatlar çərçivəsində çoxtərəfli əməkdaşlığın genişləndirilməsinə xüsusi töhfələr verir.

Azərbaycanın növbəti təşəbbüslərindən biri də bu ilin noyabrında BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un ölkəmizdə keçirilməsi ilə bağlıdır. Belə bir mötəbər tədbirin ölkəmizdə təşkili Azərbaycanın COP kimi dünyamiqyaslı hərəkatın ilk sırasında dayandığını bir daha bütün beynəlxalq birliyə çatdıran əhəmiyyətli siyasi mesajdır.

Prezident İlham Əliyev 15 dekabr 2023-cü ildə keçirdiyi müşavirədə mötəbər tədbirin Azərbaycanda keçirilməsinin ölkəmizin bütün dünyada nüfuzunun güclənməsi ilə izah edib: "Bir neçə gün bundan əvvəl ölkəmiz növbəti böyük uğura imza atmışdır, COP29 beynəlxalq konfrans Azərbaycanda, Bakıda keçiriləcək. Bu qərarı bütün dünya ölkələri bir neçə gün bundan əvvəl qəbul etmişdir və beləliklə, Azərbaycana növbəti dəfə böyük etimad və böyük hörmət göstərilmişdir. Biz buna layiqik, biz apardığımız siyasət nəticəsində dünya miqyasında çox güclü mövqelərə sahib olmuşuq. Azərbaycana beynəlxalq aləmdə olan hörmət günbəgün artır və biz bu hörməti öz əməlimizlə, işimizlə, siyasətimizlə qazanmışıq".

COP29 beynəlxalq konfransının yüksək səviyyədə keçiriləcəyini də qeyd edən ölkə başçısı əlavə edib ki, "bu, ölkəmizin, xalqımızın növbəti böyük uğuru olacaq. Eyni zamanda, dünyada hər kəs bir daha görəcək ki, bizim gündəliyimiz "yaşıl" enerji ilə bağlıdır. "Yaşıl" enerji növlərinin yaradılması və "yaşıl" enerjinin dünya bazarlarına nəqli hazırda bizim enerji siyasətimizin prioritetidir. Bu, reallıqdır və bütün dünya bunu bir daha görəcək".

### Azərbaycanın COP29 gündəmi

COP29 iqlim fəaliyyətini sürətləndirmək və Paris Sazişinin məqsədlərinə nail olmaq üçün həlledici tarixi görüş hesab olunur. Hələ 2015-ci ilin dekabrında BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına üzv ölkələrin 21-ci konfransında Paris razılaşması qəbul olunub. COP tədbirlərinin məqsədi Paris Sazişinin tələbi olaraq dünyada karbon qazının ($CO_2$) miqdarını sənayeləşmədən əvvəlki dövrdə olduğu kimi 1,5 dərəcə Selsi ilə məhdudlaşdırmaq üzrə irəliləyişə nail olmaqdır. COP29 konfransı iştirakçı ölkələr üçün yeni öhdəliklər götürmək və iqlim böhranını həll etmək, konkret addımlar atmaq üçün bir fürsət kimi dəyərləndirilir.

Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2024-cü ilin ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi isə bu sahədə qlobal təşəbbüslərə ölkəmizin verdiyi töhfədir.

Qeyd edək ki, "yaşıl" iqtisadiyyata keçid və "yaşıl" enerji təchizatçısına çevrilmək Azərbaycanın iqtisadi siyasətinin prioritetlərindəndir və ölkə başçısı tərəfindən imzalanmış sənəd bu istiqamətdə təşəbbüsləri stimullaşdırmaq məqsədi daşıyır. Bu mənada "Yaşıl dünya naminə həmrəylik ili" Azərbaycanın COP hərəkatına dəstəyinin bariz nümunəsi kimi qiymətləndirilə bilər. Prezident İlham Əliyev işğaldan azad edilmiş torpaqları "Yaşıl enerji" zonası elan edib və 2022-2026-cı illər üzrə tədbirlər planı təsdiqlənib, bu ərazilərin 2050-ci ilədək "Netto sıfır emissiya" zonasına çevrilməsi nəzərdə tutulur.

Ölkə başçısı Azərbaycanın "yaşıl dünya" naminə gündəmini belə izah edib: "Yaşıl enerji keçidi bizim prioritet məsələmizdir və bu il Azərbaycanda bölgənin ən böyük bərpa olunan elektrik enerjisi stansiyası istifadəyə verilmişdir - 230 meqavat gücündə günəş elektrik stansiyası artıq bizim enerji sistemimizə tam inteqrasiya edilmişdir. İmzalanmış kontraktlar və anlaşma memorandumları əsasında yaxın bir neçə il ərzində Azərbaycanda 10 min meqavat bərpa olunan enerji növləri, enerji mənbələri yaradılacaq və bu sahədə də Azərbaycan dünyada liderlər sırasında olacaqdır".



Azərbaycan davamlı inkişaf məqsədlərini daim diqqət mərkəzində saxlayır. Ölkəmiz bu sahədə qlobal təşəbbüsləri dəstəkləyən və təbliğ edən ölkələrdən biridir və bu baxımdan, COP29-a ev sahibliyi etməsi ölkənin yaşıl iqtisadiyyata keçid strategiyasının məntiqi davamı kimi qiymətləndirilə bilər.

### "Yaşıl dünya" naminə "yaşıl" iqtisadiyyat

Ölkəmizdə "yaşıl" iqtisadiyyat sahəsində həyata keçirilən tədbirlər və onun uğurlu nəticələri COP29-un "yaşıl" gündəliyində duran məsələlərlə həmahəngdir və bu sahədə Azərbaycanın malik olduğu potensial və tarixi təcrübə bütün ölkələrə örnək göstərilə bilər.

Hazırda bütün dünyada ənənəvi enerji mənbələrindən "yaşıl" enerjiyə keçid müasir dövrün əsas hədəflərindən biridir. "Yaşıl" enerjiyə keçid "yaşıl" iqtisadiyyat qarşısında duran mühüm vəzifələrdən başlıcasıdır. Bu keçid ən müasir texnologiyalar tətbiq edilməklə ənənəvi enerji resurslarının bərpa olunan enerji mənbələri ilə əvəz edilməsini özündə ehtiva edir. Bərpa olunan enerji texnologiyalarının sürətli inkişafı "yaşıl" enerji keçidini sürətləndirməkdədir. Dünyada ekoloji cəhətdən təmiz enerji mənbələrindən istifadənin genişləndirilməsi Paris Sazişi çərçivəsində qəbul edilmiş öhdəliklərin icrasına da töhfəsini verir.

Bu gün qlobal iqlim dəyişikliklərinin qarşısını almaq üçün planetin enerjiyə olan tələbatının ətraf mühitə zərər vurmadan ödənilməsi ən aktual məsələlərdəndir. Elə bu səbəbdən də dünya ölkələri karbon emissiyalarının azaldılmasına qarşı mübarizə aparır. Azərbaycanda da bu sahəyə xüsusi diqqət göstərilir. 2030-cu ilədək elektrik enerjisi qoyuluş gücündə bərpa olunan enerji mənbələrinin payının 30 faizə çatdırılması, işğaldan azad olunmuş ərazilərin "Yaşıl Enerji" Zonasına çevrilməsi ölkəmizin enerji siyasətində bir nömrəli prioritetdir. Hazırda Azərbaycanda elektrik enerjisi yalnız ekoloji cəhətdən təmiz mənbələrdən - təbii qaz, su, günəş və küləkdən istehsal olunur.

Azərbaycan yaşıl enerji ekosisteminin inkişafında maraqlı ölkədir. Bu gün ölkəmiz Avropaya digər enerji körpüsünü salmağa başlayır. Ölkəmiz Avropanın mühüm elektrik enerjisi, əsasən, "yaşıl" enerji təchizatçısına çevrilməyi planlaşdırır.

Bu məqsədə çatmaq üçün aşağıdakı təkliflər verilə bilər:

*- Külək elektrik stansiyalarının tikilməsi ölkəmiz üçün yeni imkanlar yarada bilər. Bu, Azərbaycana 200 və ya 300 milyon kubmetr qaza qənaət etməyə imkan verəcək.*

*- Azərbaycanda həm günəş, həm də külək enerjisinin istehsalı üçün coğrafi olaraq çox gözəl təbii şərait var. Hesab edirik ki, Azərbaycanda alternativ enerji istehsalı həcmini artırmaq üçün hidroelektrik stansiyaların tikilməsi mühüm əhəmiyyət daşıyır.*

*- Ölkədə karbon tullantılarının azaldılması üzrə müasir "ağıllı texnoloji" həllər ən kəskin ekoloji problemləri aradan qaldıra bilər. Bu, ekoloji vəziyyətin yaxşılaşdırılmasına, şəhər tullantılarının emalında xərclərin aşağı salınmasına, "yaşıl" texnologiyaların tətbiqi ilə daimi iqtisadiyyatın dəstəklənməsinə, tullantıların innovativ və davamlı emalına töhfə verə bilər.*

Hesab edirik ki, atmosfer havasının mühafizəsi, su ehtiyatlarının çirklənməsinin, torpaqların deqradasiyasının qarşısının alınması, mövcud yaşıllıqların mühafizəsi və yeni yaşıllıq sahələrinin salınması, tullantıların idarə olunmasının təkmilləşdirilməsi, biomüxtəlifliyin qorunması "yaşıl" iqtisadiyyat siyasəti sahəsində mühüm istiqamətlərdir.

### Niyə "yaşıl" iqtisadiyyat?

Məlum olduğu kimi, dünya qloballaşdıqca iqtisadiyyat qarşısında duran vəzifələr də qlobal xarakter almağa başlayır. Bu, özünü, ilk növbədə, "yaşıl" iqtisadiyyatın məzmun və inkişaf konseptində göstərir. "Yaşıl" iqtisadiyyat resurslara məsuliyyətlə yanaşmağı nəzərdə tutan iqtisadi inkişaf modelidir. Bu model iqtisadi artım və təbii ehtiyatların qorunması arasında düzgün kompromislərin axtarılıb tapılmasına yönəlib. "Yaşıl" iqtisadiyyat bir tərəfdən əsas qlobal ekoloji problemlərin həllinə, digər tərəfdən isə insanların rifahının yaxşılaşdırılmasına, məhsuldarlığın və istehsalın səmərəliliyinin artırılmasına yönəlmiş iqtisadiyyat kimi başa düşülməlidir .

Digər tərəfdən, "yaşıl" iqtisadiyyatda məşğulluq və gəlir artımı karbon emissiyalarını və çirklənməni azaldan, enerji və resurs səmərəliliyini yaxşılaşdıran, biomüxtəliflik və ekosistem xidmətlərinin itirilməsinin qarşısını alan iqtisadi fəaliyyətlərə, infrastruktura və aktivlərə dövlət və özəl investisiyalar hesabına təmin edilir.

"Yaşıl" iqtisadiyyat son 20 ildə ortaya çıxan yeni konsepsiyalardan biri olaraq müxtəlif ölkələr və ərazilər üçün eyni vaxtda sosial, iqtisadi və ekoloji hədəflərə çatmağı təmin etmək üçün hazırlanmış davamlı inkişaf konsepsiyası ilə sıx bağlıdır. Bununla birlikdə, Davamlı İnkişaf Konsepsiyasından fərqli olaraq, "yaşıl" iqtisadiyyatda ətraf mühitin qorunması strategiyalarına zidd olmayan iqtisadi böyüməyə aksent edilir. "Yaşıl" iqtisadiyyat ideyası son 10 il ərzində ekoloji cəhətdən təmiz sənaye əməliyyatlarından istifadə etməklə yoxsulluğu azaltmaq və uzunmüddətli artımı təşviq etmək məqsədi daşıyan siyasətin çərçivəsi kimi yaranıb. Proqnozlara görə, 2030-cu ilə qədər təqribən 25 milyon insanın dolanışıq vasitələrinin "yaşıl" iqtisadiyyatdan asılı olacağı gözlənilir.

"Yaşıl" iqtisadiyyat termini ilk dəfə 1989-cu ildə elmi dövriyyəyə daxil edilib. Hazırda "yaşıl" iqtisadiyyatla əlaqəli anlayış və prinsiplərin xüsusiyyətlərini sistemləşdirmədən və ümumiləşdirmədən bu konsepsiyanın mahiyyətini anlamaq çətindir. Ümumiyyətlə, "yaşıl" iqtisadiyyat yeni iş yerləri yaradan texnologiya və yeniliklərdən istifadə etməklə əhalinin resurs səmərəliliyinin və rifahının yüksəldilməsi, eyni zamanda uzunmüddətli ekoloji riskləri azaltmaq üçün dinamik prosesə aiddir.

Məhz bu baxımdan "yaşıl" iqtisadiyyat gündəliyi bütün ölkələr üçün eyni dərəcədə əhəmiyyətli və aktualdır.

**Oruc MUSTAFAYEV**